Elm .- 2025.- 30 may(№19).- S.4.

# Akademik İsa Həbibbəyli Nobel mükafatı laureatı Əziz Sancarı Əlişir Nəvai Beynəlxalq Mükafatı alması münasibətilə təbrik edib

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif olunan Nobel mükafatı laureatı, AMEA-nın fəxri üzvü, professor Əziz Sancara təbrik məktubu ünvanlayıb.**



Məktubda deyilir:

*"Çox hörmətli Əziz bəy,*

*Sizə Türk dünyası üçün önəmli olan növbəti mükafatın verilməsi xəbərini böyük sevinc hissi ilə qarşıladıq.*

*Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Sizin Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif olunmağınız bizim Akademiyamız üçün də böyük şərəfdir.*

*Bu münasibətlə Sizi öz adımdan və Fəxri üzvü olduğunuz Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi adından ürəkdən təbrik edirəm, Sizə hər zaman yüksəklərdə olmağı və daha böyük zirvələr fəth etməyi arzu edirəm.*

*Hörmətlə,*
*AMEA-nın prezidenti*
*akademik İsa Həbibbəyli"*